# Enerji Məsələlərini Tənzimləmə Agentliyi

## VAKANSİYA ELANI

## Hüquqi təminat və təhlil şöbəsi – Aparıcı hüquqşünas

**Enerji Məsələlərini Tənzimləmə Agentliyi Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il tarixli 1750 nömrəli Fərmanı ilə yaradılmışdır və Azərbaycan Respublikasında elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində istehsalçılar, paylayıcılar, təchizatçılar və istehlakçılar arasında münasibətlərin tənzimlənməsini, müəssisələrin fəaliyyətinin təhlilini, investisiyaların cəlb edilməsi üçün stimullaşdırıcı mexanizmlərin hazırlanmasını, mühəndis-kommunikasiya təminatı sistemlərinə və xidmətlərin keyfiyyətinə dair tələblərə əməl edilməsinə nəzarətin təşkilini həyata keçirən publik hüquqi şəxsdir.**

### VƏZİFƏ ÖHDƏLİKLƏRİ:

- Agentliyin fəaliyyəti ilə bağlı hüquqi sənədlərin layihələrinin hazırlanmasında iştirak edir;
- Normativ-hüquqi aktların layihələrini hazırlamaq, mövcud normativ aktları təhlil edərək təkmilləşdirməsi və onları qüvvədə olan qanunvericiliyə uyğunlaşdırması istiqamətində təkliflər hazırlayır;
- Layihə sənədlərinin hüquqi ekspertizasını aparır;
- Agentliyin daxili normativ sənədlərinin (daxili təlimatlar, qaydalar, prosedurlar və s.) layihələrinin hazırlanmasında iştirak edir, onların hüquqi ekspertizasını aparır və qanunvericiliyə uyğunluğunu təmin edir;
- İcraatına daxil olan hüquqi sənədlərə və məsələlərə dair şifahi və yazılı məsləhətlər, izahatlar, hesabatlar və arayışlar verir;
- Hazırlanmasında və ya razılaşdırılmasında iştirak etdiyi müqavilə layihələrinə, forması təsdiq olunmuş standart sənədlərə və müşayiət məktublarına viza verir;
- İşçi qruplarda və rəhbərlik tərəfindən cəlb edildiyi beynəlxalq konfrans, seminar və digər tədbirlərdə iştirak edir;
- Vəzifəsi üzrə şöbə müdiri, baş hüquqşünas tərəfindən verilən digər göstərişləri yerinə yetirir.

### TƏLƏBLƏR:

- Ali təhsil (hüquqşünaslıq);
- İnzibati hüquq, mülki hüquq, prosessual hüquq, əmək hüququ və beynəlxalq hüquq sahələri, habelə energetika hüququ institutu üzrə peşəkar bilik və bu sahələrdən birində və ya bir neçə üzrə təcrübəyə malik olmalı;
- Qanunvericilik və normayaratma texnikasını bilməli və dövlət idarəetməsi sahəsində biliklərə malik olmalı;
- Yaş həddi 23-35 aralığı;
- İxtisası üzrə azı 2 il iş təcrübəsi;
- Microsoft Office proqramlarında işləmə bacarığı;
- İngilis dili biliyi.

### DİGƏR:

- Əmək bazarına uyğun rəqabətli əmək haqqı və mükafatlandırma;
- İş yerinin ünvanı: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 84.

Vakant vəzifə ilə maraqlanan şəxslər anketlərini **vacancy@regulator.gov.az** poçt ünvanına göndərə bilərlər. Müraciətin mövzu hissəsinə mütləq şəkildə vakansiyanın adını (**Hüquqi təminat və təhlil şöbəsi – Aparıcı hüquqşünas**) qeyd edin.